**AZƏRBAYCAN TIBB UNIVERSITETI**

# «REVMATOLOGİYA»
## ixtisası üzrə fəlsəfə doktoru imtahanının

## PROQRAMI

**hazırlıq istiqaməti: «TIBB ELMLƏRI»**

**proqramın istiqaməti: 060924 – «REVMATOLOGIYA »**

**BAKI - 2022**

**Revmatologiya fənni üzrə fəlsəfə doktoru imtahanının proqramı**
**tibb elmləri doktoru, əməkdar elm xadimi, III Daxili xəstəliklər kafedrasının professoru S.K.Musayev**
**tərəfindən hazırlanmışdır**

## MƏZMUNU

Ümumi qaydalar:

**Bölmə I.** Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri
**Bölmə II.** Fəlsəfə doktoru imtahanının verilməsi prosesində yoxlanan bacarıqlar
**Bölmə III.** Fəlsəfə doktoru imtahanı proqramının məzmunu
3.1. Revmatologiyaya giriş
3.2. Proqramın mənimsənilməsi nəticəsində doktorantın səriştəliyinə (kompetensiyasına) qoyulan tələblər

3.2.1 Həkim- revmatoloq aşağıdakı ümummədəni kompetensiyalara yiyələnməlidir

4. Təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər
**Bölmə IV.Tədris-metodik və informasiya təminatı**
**Bölmə V. Qiymətləndirmə meyarları**

## Ümumi qaydalar

Doktorantura ali təhsil bazasında elmi və elmi-pedaqoji kadr hazırlığını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir. Doktorantura təhsili ali təhsilin ən yüksək pilləsi olaraq ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalar vasitəsilə həyata keçirilir.

«Revmatologiya» ixtisası üzrə Təhsil Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı» tələblərinə, rezidentura təhsilinin məzmunu və təşkili Qaydalar» na və «Rezidenturada həkim – mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı»na uyğun hazırlanmışdır.

"Revmatologiya" - insanın revmatik xəstəliklərinin diaqnostikası, müalicə və profilaktikasına yönəlmiş tibbi elm sahəsidir. Həkim-revmatoloq dərin fundamental və kliniki peşə hazırlığı tələb edən fəaliyyətə, o cümlədən, elmi-tədqiqat işi aparmağa hazır olmalıdır.

«Revmatologiya» ixtisası üzrə fəlsəfə doktoru imtahanına daxil edilmiş sualların mənimsənilməsinin nəticələri doktorantların elmi – tədqiqat və peşəkar fəaliyyətləri üçün həlledici əhəmiyyətə malikdir.

Doktorantura ali təhsil bazasında elmi və elmi – pedaqoji kadr hazırlığını, ixtisas və elmi dərəcələrin təkmilləşdirilməsini təmin edir. Doktorantura təhsili ali təhsilin ən yüksək pilləsi olaraq ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalar vasitəsilə həyata keçirilir.

«Revmatologiya» ixtisası üzrə fəlsəfə doktoru imtahanı proqramında fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri, ona olan tələblər müəyyən edilmiş, fəlsəfə doktoru imtahanının məzmunu və qiymətləndirmə meyarları təsvir edilmişdir.

«Revmatologiya» – fundamental elmi bazaya malik olan, elmi yaradıcılığın metodologiyası və müasir informasiya texnologiyaları barədə məlumatlı, müstəqil elmi – tədqiqat və elmi – pedaqoji fəaliyyətlə məşğul olmağı bacaran və buna hazır olan şəxsiyyətin formalaşmasına imkan yaradır.

İstifadə olunan işarələr:

**ÜF** – ümumi fənnlər

**PF** – peşə fənnlər

## I BÖLMƏ. ELMİ İXTİSAS ÜZRƏ FƏLSƏFƏ DOKTORU

## İMTAHANININ HƏDƏFLƏRİ VƏ MƏQSƏDLƏRİ

060924- "Revmatologiya" ixtisası üzrə doktoranturada təhsil alanların hazırlığının hədəfi tibb sahəsində ali ixtisaslı kadrlar hazırlanmasından, bu sahənin elmi və elmi-pedaqoji kadrlarla, həmçinin revmatoloji tədqiqatın müasir elmi metodlarına yiyələnmiş, yüksək ixtisaslı mütəxəssislərlə təmin etməkdən, doktorantın elmi ixtisas fənlərinin öyrənilməsinin yekunlarına əsasən onun bacarıqlarının səviyyəsini aşkar etmək və qiymətləndirməkdən ibarətdir.

**Tədqiqatın məzmununun əsasını** – xəstə orqanizmin həyat fəaliyyətinin nəzəri əsaslarının tədqiqi, eksperimental modelləşdirmə şəraitində və klinik müşahidələr fonunda patoloji proseslərin, xəstəliklərin, patoloji vəziyyətlərin yaranma səbəbləri və şəraiti, inkişaf mexanizmləri və nəticələrinin müəyyənləşdirilməsi, habelə adekvat müalicə üsullarının işlənib hazırlanması təşkil edir.

**Tədqiqatın obyekti** – müxtəlif xəstəlik və patoloji proseslər modelləşdirilmiş laborator heyvanlar və xəstə orqanizmlərdir. Patoloji proseslərin, xəstəliklərin əmələ gəlmə səbəblərinin və şəraitinin, inkişaf mexanizmlərinin eksperimental və klinik şəraitdə aparılan tədqiqatlar əsasında aydınlaşdırılması klinik tibbin inkişafına, yeni müalicə və profilaktika metodlarının işlənib hazırlanmasına zəmin yaradır.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfi** təhsil alanlar tərəfindən əsas ali təhsil proqramının 060924- "Revmatologiya" – istiqaməti üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlanması proqramının mənimsənilməsinin nəticələrinin Dövlət Ali Təhsil Standartlarının müvafiq tələblərinə nə dərəcədə uyğun olduğunu təyin etməkdir.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının məqsədləri:**

– elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanına hazırlıq və fəlsəfə doktoru imtahanının verilməsi prosesində 060924- "Revmatologiya" hazırlıq istiqaməti üzrə Dövlət Ali Təhsıl Standartlarının tələbləri (ali ixtisaslı kadrların hazırlıq səviyyəsi) və təhsil alanların ali təhsil proqramının - doktoranturada elmi-pedaqoji kadrların hazırlanması proqramının mənimsənilməsi prosesində əldə etdikləri faktiki bilik, bacarıq və vərdişlər arasında uyğunluğu təyin etmək;

– doktorantın patoloji proseslərin və xəstəliklərin inkişaf mexanizminin, gedişinin və nəticəsinin ümumi qanunauyğunluqları, ayrı-ayrı xəstəliklərin terapiya və profilaktikası prinsipləri haqqında elmi bilikləri nə dərəcədə mənimsədiyini aşkar etmək;

– doktorantın ümumi nozologiyaya aid olan məsələləri, tipik patoloji proseslərin etiologiyasını, patogenezini, ayrı-ayrı orqan və sistemlərin patologiyasının əsas formalarını, patoloji proseslərin və bir sıra mühüm xəstəliklərin profilaktikası və müalicəsi prinsiplərinin elmi əsaslandırılması bacarığını qiymətləndirmək;

– doktorantın tədqiqat metodlarını müstəqil öyrənmək, xəstəliklərin modelinin yaradılması və eksperimental terapiyası məsələlərini, o cümlədən müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, əldə olunan bilikləri

klinikada tətbiq etməyi bacarmaq; klinik təfəkkürün metodik və metodoloji əsaslarını hazırlamaq qabiliyyətini qiymətləndirmək.

## II BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANININ VERİLMƏSİ PROSESİNDƏ YOXLANILAN BACARIQLAR

Doktorantura proqramının ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı aşağıda sadalanan **bacarıqların** üzə çıxarılmasına yönəldilmişdir:

**Universal bacarıqlar:**

− müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yeni ideyalar irəli sürmək qabiliyyəti;

**Ümumi peşəkar bacarıqlar**:

− revmatologiya sahəsində müasir tədqiqat metodlarından və informasiya texnologiyalarından istifadə etməklə müstəqil elmi-tədqiqat fəaliyyətini həyata keçirmək qabiliyyəti.

**Peşəkar bacarıqlar:**

− revmatologiya sahəsində nəzəri və eksperimental tədqiqatların metodologiyasının mənimsənilməsi;

− elmi tədqiqatlarda revmatologiya elminin nəzəri əsaslarından istifadə etmək qabiliyyəti.

**Fəlsəfə doktoru imtahanında doktorant aşağıda sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:**

**biliklər:**

- ümumi nozologiya haqqında məlumat: səbəb və şərait amillərinin, həmçinin orqanizmin reaktivliyinin xəstəliklərin əmələ gəlməsində, inkişafında və nəticəsində rolu;

-tipik patoloji proseslərin səbəbləri və inkişaf mexanizmləri, əlamətləri və müxtəlif xəstəliklərin inkişafı zamanı orqanizm üçün əhəmiyyəti;

-orqan və sistemlərin tipik pozulmalarının səbəbləri, inkişaf mexanizmi və əsas əlamətləri;

- insanda tez-tez rast gəlinən xəstəliklərin etiologiyası, patogenezi, əlamətləri və nəticələri, onların etioloji və patogenetik müalicə prinsipləri;

- patoloji proseslərin öyrənilməsində eksperimental metodun (heyvanlarda xəstəliklərin və patoloji proseslərin modelləşdirilməsi) əhəmiyyəti; onun imkanları, məhdudiyyətləri və perspektivləri;

- tibbin və səhiyyənin inkişafında revmatologiyanın əhəmiyyəti, onun digər tibbi-bioloji və tibbi fənlərlə əlaqəsi.

**bacarıqlar:**

-klinik-laborator, instrumental, eksperimental və digər müayinələrin patofizioloji təhlilini aparmaq;

-əldə olunan bilikləri elmi-tədqiqat fəaliyyətində tətbiq etmək;

-xəstəliklərin inkişafında, gedişində və nəticəsində tipik patoloji proseslərin rolunu qiymətləndirmək;

- xəstənin vəziyyətinin ağırlığını qiymətləndirmək, xəstəni bu vəziyyətdən çıxarmaq üçün lazımi tədbirlər görmək, reanimasiya tədbirlərinin həcmini və ardıcıllığını müəyyən etmək, lazımi yardım göstərmək;

-qanın müayinəsini aparmaq və hemoqrama görə qan sistemi patologiyasının olmasını və onun tipik formalarını müəyyən etmək;

- EKQ, daxili orqanların və skeletin ultrasəs və radionuklid tədqiqatlarından, ağciyərlərin, ürəyin, mədə-bağırsaq traktının, sidik orqanlarının rentgenoqrafiyasından əldə edilən məlumatları təhlil etmək;

- oynaqların sinovial qişasının, sümük iliyinin, limfa düyünlərinin, dərinin, dərialtı birləşmələrin və daxili orqanların biopsiyası üçün göstərişləri müəyyən etmək;

- oynaqların və onurğanın rentgen məlumatlarını müstəqil olaraq təhlil etmək;

- müasir biokimyəvi, kliniki, immunoloji, morfoloji testlərdən istifad\ etmək, oynağı punksiya etmək və sinoval mayenin müayinəsini edə bilmək;

-temperatur əyrilərinə görə qızdırma reaksiyalarının tiplərini müəyyən etmək;

-öyrənilən geniş yayılmış xəstəliklərin patogenetik terapiya prinsiplərini əsaslandırmaq.

**vərdişlər:**

- müxtəlif ədəbiyyat mənbələri ilə işləmək, müvafiq problemlər üzrə informasiya axatarışı aparmaq;

- tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlər-arası sahələrdə yaranan metodoloji problemləri təhlil etmək;

- müasir elmi nailiyyətləri, o cümlədən fənlərarası sahələrdə tədqiqat və prak-tiki xarakterli məsələlərin həlli üzrə fəaliyyətin nəticələrini tənqidi mövqedən təhlil etmək və qiymətləndirmək;

- müstəqil revmatoloji tədqiqat aparmaq qabiliyyəti;

- şifahi və yazılı nitqini məntiqi cəhətdən düzgün, əsaslandırılmış və aydın şəkildə qurmaq; fənlərarası qarşılıqlı təsiri həyata keçirmək, tədqiqat məsələlərinin həlli üçün perspektivli nəzəri-metodoloji və elmi-praktik yanaşmaları inkişaf etdir-mək qabiliyyəti;

-tədqiqat işinin müxtəlif metodları;

-statistik göstəricilərin qiymətləndirilməsi metodikası, xronoloji təhlili metodları.

## III BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANI PROQRAMININ MƏZMUNU

### 3.1. REVMATOLOGIYAYA GİRİŞ

Revmatologiya fundamental elm və tədris fənni kimi. Revmatologiyanın müasir tibb elmində yeri. Revmatologiyanın vəzifələri və metodları. Revmatologiya və klinik təbabətin inkişafında eksperimentin əhəmiyyəti. Tibbi-bioloji eksperimentlərin aparılmasının ümumi prinsipləri və onların nəticələrinin təhlili. Revmatoloji eksperimentlərdə istifadə olunan müasir metodlar. Xəstəliyin öyrənilməsində və yeni müalicə üsullarının işlənib hazırlanmasında klinik,

laborator, instrumental müayinələr və eksperimental terapiya əhəmiyyətli metod kimi.

Klinik revmatologiya haqqında anlayış, onun vəzifələri və perspektivləri, deontoloji aspektləri. Revmatologiyanın əsas hissələri: ümumi revmatologiya və klinik revmatologiya.

### 3.2. Proqramın mənimsənilməsi nəticəsində doktorantın kompetensiyasına qoyulan tələblər

#### 3.2.1 Həkim-revmatoloq aşağıdakı ümummədəni kompetensiyalara yiyələnməlidir:

**ÜFR-01 BAZA TƏHSİLİ**

*Ümumi bilik və bacarıqlar*

**ÜFR01.01.** Cəmiyyətdə qəbul edilmiş əxlaq və hüquq normaları çərçivəsində səlahiyyətlərini icra etməyə hazır olmalı və praktiki tibbi fəaliyyət göstərməyi bacarmalı, həkimlik etikası qaydalarına, məxfi informasiya ilə işləmək haqqında qanunlara və normativ hüquqi aktlara riayət etməli, həkimlik sirrini qorumalıdır;

**ÜFR01.02.** Sosial əhəmiyyət kəsb edən məsələləri və prosesləri təhlil etməyi bacarmalı, öz professional iş fəaliyyətinə humanitar, tibbi-bioloji və digər klinik elmlərin müxtəlif metodlarını tətbiq etməyi bacarmalıdır;

**ÜFR01.03.** Səhiyyə haqqında qanunvericiliyin əsasları, tibbi yardım və revmatoloji xidmət göstərən müəssisələrin fəaliyyətini təyin edən əsas normativ sənədləri bilməlidir;

**ÜFR01.04.** Səhiyyə qanunvericiliyi ilə nəzərdə tutulmuş və müalicə müəssisəsi üzrə daxili əmrlərlə təsdiq olunmuş tibbi sənədləşməni aparmalıdır;

**ÜFR01.05.** Məntiqi və əsaslandırılmış təhlil etməyə hazır olmalı, müzakirələr və mübahisələr aparmağı, professional məzmunlu mətnləri redaktə etməyi bacarmalı, əməkdaşlıq etməli, mübahisələrin həllində tolerantlıq göstərərək tərbiyəvi və pedaqoji fəaliyyət göstərməlidir;

**ÜFR01.06.** İdarəçilik üsullarını və metodlarını bilməli, müxtəlif tərəddüdlü vəziyyətlərdə öz professional peşə səriştəliliyi çərçivəsində lazımi məsul idarəçilik qərarını verməyi bacarmalıdır;

**ÜFR01.07.** Tibbdə və revmatologiyada etika və deontologiya əsasları;

**ÜFR01.08.** Tibbi statistika və informatika.

**ÜFR-01. TOPOQRAFİK ANATOMİYA**

*Ümumi biliklər*

**ÜFR-01.1.** Orqan və sistemlərin anatomiyasını bilmək.

**ÜFR-01.2.** Anatomik strukturları müxtəlif görüntüləmə üsullarında tanıya bilmək.

**ÜFR-01.3.** Mərkəzi və periferik sinir sistemin anatomiyanı bilmək.

**ÜFR-01.4.** Topoqrafik anatomiya və müxtəlif sinir sistemda lokalizasiyalı neoplasmaşkara çıxartmaq.

**ÜFR-01.5.** Yaşla əlaqədar anatomik strukturlarda baş verən dəyişiklikləri bilmək.

**ÜFR-01.6.** Orqan və sistemlərin embrioloji inkişafını və nevrologiyada çox rast gələn inkişaf qüsurlarının anatomiyasını bilmək.

*Ümumi bacarıqlar*

**ÜFR-01.7.** Anatomik bilikləri revmatik xəstələrin diaqnozu, müalicəsi və aparılmasına tətbiq etməyi bacarmaq.

**ÜFR-02. FİZİOLOGİYA**

*Ümumi biliklər*

**ÜFR-02.1.** Orqanizmin normal fiziologiyasını bilmək;

**ÜFR-02.2.** Orqan sistemlərin fiziologiyası

**ÜFR-02.2.(a)** Yara sağalması

**ÜFR-02.2.(b)** Qidalanma və metabolizm

**ÜFR-02.2.(c)** Hemostaz və koaqulyasiya

**ÜFR-02.2.(d)** Su-elektrolit mübadiləsi

**ÜFR-02.2.(e)** Hüceyrə bölünməsi, diferensasiyası və apoptoz

**ÜFR-02.2.(f)** İmmun sistem

**ÜFR-02.2.(g)** Hamiləlik

**ÜFR-02.2.(h)** Homeostaz

**ÜFR-02.3.** Revmatik xəstəliklərin patogenezini və patofiziologiyasını bilmək.

**ÜFR-02.4.** Yaşla əlaqədarı fizioloji dəyişiklikləri bilmək.

**ÜFR-02.5.** Çox istifadə olunan klinik testlərin normal dəyərlərini və yaşla əlaqədar dəyişiklikləri bilmək.

**ÜFR-02.6.** Revmatoloji müalicə və monitorizasiya üçün vacib olan fizioloji bilikləri əldə etmək.

*Ümumi bacarıqlar*

**ÜFR-02.7.** Fizioloji biliklər əsasında klinik və laborator sınaqları izah edə bilmək;

**ÜFR-02.8.** Hamilələrin və yaşlıların fizioloji xüsusiyyətlərini müalicə planlarında nəzərə almaq

## ÜFR-02.9. ÜMUMİ BİOKİMYA

*Ümumi biliklər*

**ÜFR-02.9.1.** Revmatik xəstəliklər zamanı qan, sidik, beyin-onurğa beyin mayesində aşkar olunan biokimyəvi dəyişiylikləri bilmək

**ÜFR-02.9.2.** Canlı orqanizmdə metabolik proseslərin neyro-humoral tənzim mexanizmləri və onların pozulmaları barədə məlumatları mənimsəməli, patoloji proseslərin eksperimental modelləşdirilməsi və eksperimental laboratoriya analizi üsullarını bacarmalıdır.

**ÜFR-02.9.3.** Həmçinin laborator analizlərin aparılmasının ümumi qaydalarını, əsas qan və sidik göstəricilərinin, şiş markerlərinin təyini metodikasını, klinik-biokimyəvi laboratoriyada istifadə edilən cihazların və üsulların prinsipi, alınmış nəticələrin riyazi-statistik işlənməsi və interpretasiyası ilə əlaqədar məlumatları bilməlidir.

**ÜFR-02.9.4.** Bədən organların, onların ifrazatının və sekretininəsas biokimyəvi göstəricilərini, onların diaqnostik əhəmiyyətini bilmək

**ÜFR-02.9.5.** Bədən organların şişlərinin markerlərini və klinik əhəmiyyətini bilmək

## ÜFR-02.10. SU – ELEKTROLİT VƏ TURŞU – QƏLƏVİ HOMEOSTAZI

*Ümumi biliklər*

**ÜFR-02.10.1.** Normal su-elektrolit və turşu-qələvi tarazlığını bilmək.

ÜFR-02.10.1(a)Orqanizmin maye mühitlərini bilmək.

ÜFR-02.10.1(b)Maye mühitləri arasında su mübadiləsinin fiziologiyasını bilmək və bunun əhəmiyyətini qavramaq.

**ÜFR-02.10.2.** Su-elektrolit homeostazında yaşla əlaqədar dəyişiklikləri bilmək.

*Ümumi bacarıqlar*

**ÜFR-02.10.3.** Su və elektrolit pozulmalarının diaqnostikasını və korreksiyasını bacarmaq.

**ÜFR-02.10.4.** Turşu-qələvi pozulmalarının diaqnostikasını və düzəldilməsini bacarmaq.

## ÜFR-02.11. METABOLİZM

*Ümumi biliklər*

**ÜFR-02.11.1.** Metabolizmin əsas yollarını və onların klinik tədqiqinin diaqnostik əhəmiyyətini bilməli, metobolizmin irsi qüsurları barədə məlumatlı olmalıdır.

**ÜFR-02.11.2.** Enerji metabolizmını bilmək;

**ÜFR-02.11.3.** Bədən temperaturunun tənzimini bilmək;

**ÜFR-02.11.4.** Metabolizmin hormonal tənzimini bilmək;

**ÜFR-02.11.5.** Aralıq metabolizmı bilmək;

**ÜFR-02.11.6.** Metabolizmdə yaşla əlaqədar ortaya çıxan dəyişiklikləri bilmək;

*Ümumi bacarıqlar*

**ÜFR-02.11.7.** İntensiv terapiya aparılan xəstələrdə gündəlik enerji ehtiyaclarını təyin etmək

**ÜFR-02.11.8.** İntensiv terapiya aparılan xəstələrdə azot mübadiləsini hesablaya bilmək;

## ÜFR-07. İMMUNOLOGİYA

*Peşə biliklər*

**ÜFR-02.11.9.** Ümumi immünoloji prinsipləri bilmək;

**ÜFR-02.11.10.** Yaşlı xəstələrdə baş verən immunoloji dəyişiklikləri bilmək;

**ÜFR-02.11.11.** Orqanizmin infeksiyalara qarşı müdafiə mexanizmlərini bilmək;

**ÜFR-02.11.12.** İmmunosupressorların təsir mexanizmlərini və əlavə təsirlərini bilmək;

**ÜFR-02.11.13.** İmmunosupressiv xəstələrdəki cərrahi infeksiyaları və bunların aparılmasını bilmək;

**ÜFR-02.11.14.** İmmunosupressiv nevrolojı xəstələrin aparılmasını bilmək;

*Peşə bacarıqlar*

**ÜFR-02.11.15.** İmmunosupressiv xəstələrdə təcili və planlı cərrahi əməliyyatları və əməliyyatətrafı aparmanı bacarmaq;

**ÜFR-02.11.16.** İmmunosupressiv dərmanların xüsusəndə gen mühəndisliyi tətbiqini bacarmaq;

## ÜFR-03. PATOHİSTOLOJİ MÜAYİNƏLƏR

*Ümumi biliklər*

**ÜFR-03.1.** Morfoloji müayinə üsullarının mahiyyəti;

**ÜFR-03.2.** Revmatoloji xəstəliklərin patogenezini bilmək.

**ÜFR-03.3.** Revmatik patologiyaların prinsiplərini bilmək.

**ÜFR-03.4.** Çıxarılmış preparatların işlənməsini bilmək.

**ÜFR-03.5.** Klinik və laborator məlumatların revmatik xəstəliklərin diaqnostikasında istifadəsini bilmək.

**ÜFR-03.6.** Orqanların patologiyalarını bilmək;

**ÜFR-03.7.** Revmatik patologiyaların prisiplərini bilmək;

**ÜFR-03.8.** Revmatoloji preparatların işlənməsini bilmək;

*Ümumi bacarıqlar*

**ÜFR-03.9.** İncə iynə aspirasion biopsiyasını, eksiziyonal və insizional biopsiyanı, kəsici iynə biopsiyasını bacarmaq;

**ÜFR-03.10.** Klinik, laborator məlumatların cərrahi xəstələrin diaqnostikası, müalicəsi, əməliyyatönü, əməliyyatdaxili və sonrası aparılmasında tətbiqini bacarmaq;

**ÜFR-03.11.** Histoloji materialın hazırlanmasını, sitoloji və histoloji materialların sitoloji, histoloji və histokimyəvi üsullarla tədqiqini,

**ÜFR-03.12.** Patoloji toxumaların biopsiyasını bacarmaq.

**ÜFR-03.13.** Klinik, laborator məlumatların revmatoloji xəstələrin diaqnostikası, müalicəsi, əməliyyatönü, əməliyyat daxili və sonrası aparılmasında tətbiqini bacarmaq.

**ÜFR-03.14.** Revmatoloji xəstələrin aparılmasında patohistoloq ilə işbirliyini bacarmaq.

**ÜFR-03.15.** Bioloji obyektlərin elektron mikroskopiyası üçün hazırlanmasını, preparatların lüminissent mikroskopik tədqiqini, axıcı sitometrik üsulla sitogenetik tədqiqatların aparılmasını, immunhistokimyəvi tədqiqat metodlarını və bioloji obyektlərin mikrofotolaşdırılmasını bacarmaq;

## ÜFR-04. TİBBİ STATİSTİKA VƏ İNFORMATİKA

*Ümumi biliklər*

**ÜFR-04.1.** Ümumi epidemiyoloji prinsipləri bilmək;

**ÜFR-04.2.** Klinik və ekspeimental tədqiqatların planlaşdırılmasını və statistikasını bilmək;

**ÜFR-04.3.** İnsan üzərində tədqiqatların prinsiplərini bilmək;

**ÜFR-04.4.** BXK-10-nun strukturanı və hissələri bilmək

**ÜFR-04.5.** Sübutlu təbabətin prinsiplərini bilmək;

*Ümumi bacarıqlar*

**ÜFR-04.6.** Tibbi biliklərə yiyələnməyi, tənqidi yanaşmağı və tətbiqində sübutlu təbabətin prinsiplərinə əsaslanmağı bacarmaq

**ÜFR-04.7.** Klinik və eksperimental tədqiqatları planlaşdırmağı, aparmağı, nəticələrini təqidim etməyi və yazmağı bacarmaq;

**ÜFR-04.8.** Databaz proqramları və statistika proqramları ilə işləməyi bacarmaq;

## PFR-01. DAXİLİ XƏSTƏLİKLƏR

*Peşə bilikləri*

**PFR-01.01.** Ölkədə terapevtik yardımın təşkilinin ümumi məsələləri, xəstəxana-ambulator müəssisələrin işinin, böyük və uşaq əhalisinə təcili və təxirəsalınmaz yardımın təşkili;

**PFR-01.02.** İntensiv terapiya və revmatoloji şöbələrə təcili hospitalizasiyası tələb olunan kardioloji təxirəsalınmaz halların siyahısı;

**PFR-01.03.** Terapiya xüsusi tədqiqat üsulları (rentgenoloji, ultrasəs, biokimyəvi, angioqrafik və s.);

**PFR-01.04.** Terapiyada ümumi tədqiqat üsulları, funksional tədqiqat üsulları və ilk növbədə, elektrokardioqrafiya norma və patologiya zamanı;

**PFR-01.05.** Ürək-damar sistemi, böyrəklər, mədə-bağırsaq sistemi funksiyalarına instrumental və laborator nəzərət üsulları;

**PFR-01.06.** Terapevtik klinikada farmakoterapiyanın əsasları, o cümlədən, əsas dərman maddələri qrupunun təsir mexanizmi, dərman tətbiqi zamanı baş vermiş fəsadlar;

*Peşə bacarıqları*

**PFR-01.07.** Pasiyentin xəstəliyi haqqında ətraflı informasiyanın toplanması; obyektiv müayinə üsullarının tətbiqi; xəstəliyin ümumi və xüsusi əlamətlərini aşkar etmək, xüsusən, təxirəsalınmaz yardım və intensiv terapiya tələb edən hallarda;

**PFR-01.08.** Xəstənin vəziyyətinin ağırlığını qiymətləndirmək; xəstəni bu vəziyyətdən çıxarmaq üçün lazımi ölçülərin götürülməsi;

**PFR-01.09.** Xüsusi tədqiqat üsullarının zəruriliyini təyin etmək (laborator, rentgenoloji, funksional və sair);

**PFR-01.10.** Hospitallaşmaya göstərişləri təyin etmək və onu təşkil etmək;

**PFR-01.11.** Differensial diaqnostikanın aparılması, klinik diaqnozun, xəstənin aparılma sxemi, planı və taktikasının əsaslandırılması;

**PFR-01.12.** Hemostazın pozulma dərəcəsini, trombolitik terapiyaya göstərişləri təyin etmək və göstəricilərin normallaşmasına dair bütün tədbirləri yerinə yetirmək;

**PFR-01.13.** Zəruri dərman vasitələrini və digər müalicə tədbirlərini təyin etmək;

**PFR-01.14.** Lazımi konsultativ tibbi yardımın həcmini təyin etmək və müalicənin korreksiyasını aparmaq;

**PFR-01.15.** Plevranın və qarın boşluğunun diaqnostik və mualicəvi punksiyaları.

## PFR-02. AMBULATOR TERAPİYA

*Peşə bilikləri*

**PFR-02.01.** Əhalinin kütləvi profilaktik müayinəsi zamanı revmatoloji xəstəliklərin erkən aşkarlanma üsulları;

**PFR-02.02.** Standart və qeyri-parametrik statistik təhlil üsullarının əsasları;

**PFR-02.03.** Xəstələrin dispanser müşahidəsi, profilaktik problemləri;

**PFR-02.04.** Tibbi hüququn əsasları və onların gündəlik həkim praktikasında tətbiq edilmə prinsipləri.

**PFR-02.05.** Mülkü müdafiədə tibb xidmətinin təşkili və fəaliyyəti məsələləri;

**PFR-02.06.** Profilaktikanın prinsipləri və variantları, onun təşkili və əsas revmatoloji xəstəliklərin profilaktik üsulları;

*Peşə bacarıqları*

**PFR-02.07.** Əmək qabiliyyətinin müvəqqəti və davamlı surətdə itirilməsi tibbi sosial ekspertizanın aparılması;

**PFR-02.08.** Sanitar maarifləndirmənin forma və üsulları.

## ÜFR-05. ANESTEZİOLOGİYA VƏ REANİMATOLOGİYA

### ÜFR-05.1. ANESTEZİOLOGİYA

*Ümumi biliklər*

**ÜFR-05.1.1.** Ağrının patofiziologiyasını və müalicəsini bilmək;

**ÜFR-05.1.2.** Yerli, regional və ümumi anesteziyada istifadə olunan dərmanların farmakologiyasını və istifadə qaydalarını bilmək;

**ÜFR-05.1.3.** Yerli, regional və ümumi anesteziyanın prinsiplərini, metodlarını, göstəriş, əks-göstəriş və ağırlaşmalarını bilmək;

**ÜFR-05.1.4.** Revmatoloji xəstələrdə onların özəlliklərini, əməliyyat və əməliyyatdan sonrakı dövrdə baş verə biləcək ağırlaşmaların profilaktikasını və aradan qaldırılması tədbirlərini mənimsəməlidir.

*Ümumi bacarıqlar*

**ÜFR-05.1.5.** Revmatoloji xəstələri anesteziya nöqteyi-nəzərdən qiymətləndirməyi bacarmaq;

**ÜFR-05.1.6.** Anesteziya vaxtı xəstənin monitorizasyasınu bacarmaq;

**ÜFR-05.1.7.** Tənəffüs yolunu açıq tutma tədbirlərini bacarmaq;

**ÜFR-05.1.8.** Endotraxeal və nazotraxeal intubasiya və ekstubasiyanı bacarmaq;

**ÜFR-05.1.9.** Revmatoloji xəstələrdə ağrı sindromu zamanı ağrısızlaşdırılma metodlarının və preparatlarının düzgün seçilməsini bacarmaq.

### ÜFR-05.2. KRİTİK VƏZİYYƏTLƏRDƏ REANİMASİYA

*Ümumi biliklər*

**ÜFR-05.2.1.** Kritik vəziyyətlərin mexanizmlərini, həyatqurtarma tədbirlərinin prinsiplərini, ardıcıllığını və hədəf göstəricilərini bilmək;

**ÜFR-05.2.2.** Ürək dayanmasının səbələrini və mexanizmlərini bilmək;

**ÜFR-05.2.3.** Ürək dayanmasında istifadə olunan dərmanların farmakologiyasını bilmək;

**ÜFR-05.2.4.** Mexaniki ventilyasiyanın tənəffüs və ürək-damar sisteminə təsirini bilmək;

**ÜFR-05.2.5.** Ürək dayanmasının xəstələrin monitorizasiyasında istifadə edilən üsulları bilmək;

**ÜFR-05.2.6.** Beyin ölümünün kriteriyalarını bilmək

*Ümumi bacarıqlar*

**ÜFR-05.2.7.** Kritik vəziyyətlərdəki xəstələrdə həyatqurtarma tədbirlərini ardıcıllıqla yernə yetirməyi bacarmaq;

**ÜFR-05.2.8.** Tənəffüs yollarının keçiriliciyini bərpa etmək;

**ÜFR-05.2.9.** Oksigenasiya;
**ÜFR-05.2.10.** Periferik damarların punksiyası;
**ÜFR-05.2.11.** Valdman apparatı ilə Mərkəzi Damar Təzyiqinin ölçülməsi;
**ÜFR-05.2.12.** Arteriyaseksiya və veneseksiya edilməsi.
**ÜFR-05.2.13.** Ürək dayanması və aritmiyaların diaqnostikasını bacarmaq;
**ÜFR-05.2.14.** Ürək masajı və defibrilyator istifadəsini bacarmaq;
**ÜFR-05.2.15.** Tənəffüs yollarının tıxanmasının diaqnostikasını və müalicəsini bacarmaq;
**ÜFR-05.2.16.** Krikotirotomiya və traxeostomiyanı bacarmaq;
**ÜFR-05.2.17.** Mexaniki ventilyatorlardan istifadə etməyi bacarmaq;
**ÜFR-05.2.18.** Körpücükaltı, vidaci və bud venalarına kateter qoymağı bacarmaq;
**ÜFR-05.2.19.** Beyin ölümü diaqnozunu qoymağı bacarmaq

## PFR-03. ÜMUMİ REVMATOLOGİYA

*Peşə bilikləri*

**PFR-03.01.** Ölkədə revmatoloji yardımın təşkilinin ümumi məsələləri, xəstəxana-ambulator müəssisələrin işinin, əhaliyə təcili və təxirəsalınmaz yardımın təşkili;

**PFR-03.02.** Revmatik xəstəliklərinin epidemiologiyası, etiologiyası, patogenezi, diaqnostikasını;

PFR-04. Revmatik xəstəliklərin immunomorfologiyasının umumi prinsipləri;

PFR-05. Revmatik xəstəliklərin nomenklaturasını və təsnifatı; revmatoloji xəstələrin klinik qrupları;

**PFR-05.01.** Revmatik xəstəliklərin xəstələnmə və ölüm göstəricilərini, revmatik xəstəliklərin yayılması xususiyyətləri;

**PFR-05.02.** Revmatik xəstəliklərin immunogenetika prinsipləri;

**PFR-05.03.** Revmatik xəstəliklərin profilatika tədbirlərini, profilaktik müayinələrin təşkilini və aparılmasının ümumi prinsipləri;

**PFR-05.04.** Autoimmun xəstəliklərdə immunitet və rezistentlik mexanizmləri;

**PFR-05.05.** İmmunobiologiya və orqanizmin reaktivliyinin əsasları;

**PFR-05.06.** Revmatologiya xüsusi tədqiqat üsulları (rentgenoloji, ultrasəs, artroskopiya, biokimyəvi, angioqrafik və s.);

**PFR-05.07.** Revmatoloji klinikada farmakoterapiyanın əsasları, o cümlədən, əsas dərman maddələri qrupunun təsir mexanizmi, dərman tətbiqi zamanı baş vermiş fəsadlar;

**PFR-06.** Revmatoloji xəstələrin dispanserizasiyasının xüsusiyyətləri;

PFR-07. Revmatologiyada reabilitasiya prinsiplərini, reabilitasiyanın növləri;

**PFR-07.01.** Revmatik xəstəliklərin müasir müalicə üsullarının ümumi xarakteristikası;

**PFR-07.02.** Antirevmatik müalicənin növlərini, prinsiplərini, metodlarını və təsir mexanizmi;

**PFR-07.03.** Puls terapiya göstəriş və əks-göstərişləri;

**PFR-07.04.** İntensiv terapiya və Revmatologiya şöbələrinə təcili hospitalizasiyası tələb olunan ürək-damar xəstəlikləri üzrə təxirəsalınmaz halların siyahısı;

PFR-08. Antirevmatik dərman müalicəsinin əlavə təsirlərini, ağrlaşmalarını və onların müalicəsini;

*Peşə bacarıqları*

**PFR-08.01.** Revmatik xəstəliklərə şübhə olan və revmatoloji xəstələrdə klinik müayinə üsullarını;
**PFR-08.02.** Reanimasiya tədbirlərinin həcmi və ardıcıllığını təyin etmək;
**PFR-08.03.** Zəruri təcili yardımı göstərilmək;
**PFR-08.04.** Xəstəlik haqqında obyektiv informasiyanı almaq;
**PFR-08.05.** Aparıcı sindromu aşkar etmək;
**PFR-08.06.** Xəstəliyin etiologiyasını aşkar etmək;

**PFR-08.07.** Lazım olan əsas və əlavə müayinə üsullarının həcmini təyin etmək;

**PFR-08.08.** Xəstə və onun ailəsi ilə düzgün münasibət qurmaq;

**PFR-08.09.** Xəstələrdən, ailəsindən, ətrafdan müvafiq məlumatları toplamaq və onlarla işləmək;

**PFR-08.10.** Müvafiq məlumatları xəstələrlə, onların ailə üzvləri və şöbənin işçiləri ilə müzakirə etmək.

**PFR-08.11.** Xəstəni intensiv terapiya şöbəsində klinik müşahidə etməyi və həyati funksiyaların saxlanılma üsullarını;

**PFR-09. KLİNİK REVMATOLOGİYA**

*Peşə bilikləri:*

**PFR-10.** Kəskin revmatik qızdırma və ürəyin xroniki revmatik xəstəlikləri.
**PFR-11.** Birləşdirici toxumanın sistem zədələnmələri

1.0. Sistem qırmızı qurd eşənəyi
1.1. İdiopatik
1.2. Dərman qurd eşənəyi
2.0. Sistem sklerodermiyası
2.1. İdiopatik
2.2. İnduksiya olunmuş (kimyəvi və ya dərman preparatları)
3.0. Diffuz fassiit
4.0. Dermatomiozit/ polimiozit
4.1. İdiopatik
4.2. Paraneoplastik
4.3. Yuvenil
4.4. Miozit "inclusion body"*
5.0. Sindrom Şeqrena
5.1. Birincili (Şeqren xəstəliyi)
5.2. İkincili (digər revmatik xəstəliklərlə)
5.3. "Quru" sindrom- HİV infeksiya*
6.0. Qarışıq (overlap's) sindromları
6.1. Birləşdirici toxumanın qarışıq xəstəlikləri
6.2. Digər qarışıq sindromlar*
7.0. Residivləşən polixondrit
8.0. Antifosfolipid sindromu*

**PFR-12. Sistem vaskulitləri (anqiitlər, arteriitlər); vaskulopatiyalar***

1.0. Düyünlü poliarteriit
2.0. Qranulematoz arteriitlər:
2.1. Veqener qranulomatozu
2.2. Cerdj- Stross sindromu *
3.0. Qiqant hüceyrəli arteriitlər
3.1. Qicgah arteriitlər (Xorton xəstəliyi)
3.2. Revmatik polimialgiya
3.3. Qeyrispesifik aortoarteriit (Takayasu xəstəliyi)
4.0. Hiperegik anqiitlər
4.1. Hemorragik vaskulit (Şenleyn-Henox xəstəliyi)
4.2. Qarışıq krioqlobulinemiya (krioqlobulinemik purpura)
5.0. Obliterəedici tromboangiit (Byurger xəstəliyi)
6.0. Qudpasçer sindromu
7.0. Bexçet xəstəliyi
8.0. Kavasaki xəstəliyi (dəri selikli qişa-vəz sindromu )

9.0. Trombotik trombositopenik purpura (Moşkoviç sindromu )
10.0 Autoimmun, infeksion və şiş xəstəliklərində müşahidə olunan vaskulitlər

**PFR-13. Revmatoid artriti**

1.0. Seropozitiv (revmatoid faktoruna görə)
2.0. Seronegativ (revmatoid faktoruna görə)
3.0. Sistem əlamətləri olmayan (poliartrit, oliqoartrit, monoartrit)
4.0. Sistem əlamətləri ilə
4.1. Felti sindromu
4.2. Böyüklərin Still xəstəliyi*

**PFR-14.** Yuvenil artrit

**PFR-15.** Ankilozə edici spondilit və spondilitlə müşayiət olunan digər artritlər (spondiloartropatiyalar)

1.0. Ankilozəedici spondilit (Bexterev xəstəliyi)
2.0. Reaktiv artrit
3.0. Psoriatik artrit
4.0. Xroniki bağırsaq xəstəliklərində müşayiət olunan artritlər (xoralı kolit, Kron xəstəliyi)

**PFR-16. Osteoartroz (osteoartrit) və ona yaxın xəstəliklər**

1.0. Osteoartroz
1.1. Birincili
1.2. İkincili
1.3. Spondilez, spondiloartroz
1.4. Endemik (Kaşin-Bek xəstəliyi)
2.0. Fəqərə arası osteoxondroz
3.0. İdiopatik duffuz skletin hiperostozu (Foreste xəstəliyi)

**PFR-17. Oynaqların digər xəstəlikləri**

1.0. Palindrom revmatizm
2.0. İntermitə edici hidroartroz
3.0. Çoxsaylı retikulohistiositoz
4.0. Sinovioma
5.0. Oynaqların xondromatozu
6.0. Villezdüyünlü sinovit

**PFR-18. Oynaqxarici yumşaq toxumanın xəstəlikləri**

1.0. Əzələ xəstəlikləri
1.1. Miozitlər
1.2. Ossifikaedici miozit
1.3. İdiopatik kalsinoz
2.0. Oynaqətrafı toxumanın xəstəlikləri
2.1. Entezopatiyalar
2.2. Tendinitlər ("şakkıldayan barmaq" sindromu ilə)
2.3. Tendovaqinitlər (de Kervin xəstəliyi ilə)
2.4. Bursitlər (Beyker kistası daxil olmaqla)
2.5. Periartritlər
2.6. Bilək kanalı sindromu və digər liqamentitlər
3.0. Aponevrozların və fassiyaların xəstəlikləri
4.0. Dərialtı-piy toxumasının xəstəlikləri
4.1. Düyünlü eritema
4.2. Ağrılı Derkum lipomatozu
4.3. Pannikulitlər (Veber- Krisşen xəstəliyi daxil olmaqla)
5.0. Birincili fibromialgiyalar
5.1. Psixogen revmatizm
5.2. Xroniki yorğunluq sindromu*

**PFR-19. Sümüklərin, qığırdaqların xəstəlikləri, osteoxondropatiyalar**

1.0. Sümüklərin xəstəlikləri
1.1. Qeneralizəolunmuş osteoporozlar
1.2. Osteomalyasiya
1.3. Hipertrofik osteoartropatiyalar
1.4. Pedjet xəstəliyi (deformasiyaedici osteitlər)
1.5. Osteoliz (etiologiyası məlum olmayan)
1.6. Natamam osteogenez
2.0. Osteoxondropatiyalar
2.1. Bud sümüyü başının aseptik nekrozu
2.2. Fəqərə cisimlərin osteoxondropatiyaları
2.3. Baldır sümüyünün burmalarının osteoxondropatiyaları
3.0. Osteoxondritlər
3.1. Keniq kəsici osteoxondriti
3.2. Digər osteoxondritlər

**PFR-20. Qeyri-revmatik xəstəliklərdə müşayiət olunan artropatiyalar**

1.0. Allergik xəstəliklər
1.1. Zərdab xəstəliyi
1.2. Dərman xəstəliyi
1.3. Digər allergik vəziyyətlər
2.0. Metabolik dəyişikliklər
2.1. Amilaidoz
2.2. Oxronoz
2.3. Hiperlipidemiya
2.4. Hemoxromatoz
2.5. Vilson xəstəliyi *
3.0. Birləşdirici toxumanın metabolizmin anadangəlmə defektləri
3.1. Marfan sindromu
3.2. Elers-Danlos sindromu
3.3. Hipermobil sindrom
3.4. Mukopolisaxaridoz
4.0. Endokrin xəstəlikləri
4.1. Şəkərli diabet
4.2. Akromegaliya
4.3. Hiperparatireoz
4.4. Hipertireoz
4.5. Hipotireoz
4.6. Addison xəstəliyi *
5.0. Sinir sisteminin zədələnməsi
5.1. Şarko artropatiyası
5.2. Alqodistrofiya
5.3. "Çiyin-əl" sindromu
6.0. Qan sistemi xəstəlikləri
6.1. Hemofiliya
6.2. Hemoqlobinopatiyalar
6.3. Leykozlar
6.4. "Mielom" xəstəliyi
7.0. Paraneoplastik sindrom
8.0 Peşə xəstəlikləri
8.0. Vibrasiya xəstəliyi
8.1. Silikozlar
8.2. Kesson xəstəliyi

8.3. Digərləri
9.0. Digər xəstəliklər
9.1. Sarkoidoz
9.2. Periodik xəstəlik
9.3. Xroniki aktiv hepatit
9.4. Hipovitaminoz C
9.5. Qlyuten enteropatiyası*
9.6. İmmunodefisitli xəstəliklər

**PFR-21. AMBULATOR REVMATOLOGİYA**

*Peşə bilikləri:*

PFR-21.01. Sümük, oynaq, əzələ sistemi orqanların üzərində aparılmış əməliyyatdan sonra xəstələrin müalicə və reabilitasiya həcmini təyin etmək;

PFR-21.02. Revmatoloji ambulator xəstələrin (uşaqlar da daxil olmaqla) aparılmasını, eləcə də bütün yaş qruplarında ekspertizanı;

*Peşə bacarıqları:*

PFR-21.3. Qeyri-nevroloji profilli xəstələrə nevroloji müayinənin aparılması və lazımi tövsiyyələrin verilməsi;

PFR-21.4. Sağlam şəxslər və xəstələr arasında keyfiyyətli tibbi maarifləndirmə işini aparmağı.

**PFR-22. *Peşə bilikləri:* Artritlər- infeksiya ilə əlaqəli**

1.0. İnfeksion artritlər
1.1. Bakterial
1.1.1. Laym xəstəliyi
1.1.2. Uippl xəstəliyi
1.1.3. Brusellyoz
1.2. Viruslar
1.2.1. Karel qızdırması
1.2.2. HİV-infeksiyalarda müşayiət olunan artritlər
1.2.3. HTLV-1 infeksiyalarda rast gələn artritlər *
1.3. Göbələk
1.4. Parazitar
2.0. Reaktiv artritlər
2.1. Postenterokolitik artritlər
2.2. Urogenetal artritlər
2.3. Burun-udlaq infeksiyasından sonrakı artritlər
2.4. Bağırsaq şuntlama əməliyyatından sonrakı artritlər
2.5. Digər infeksiyalardan sonrakı artritlər
2.6. Postvaksinal

**PFR-23. VIII. Mikrokristalik artritlər**

1.0. Birincili Podaqra
2.0. İkincılı Podaqra
3.0. Xondrokalsinoz ("psevdopodaqra")
4.0. Hidroksiapatit artropatiyası
5.0. Digər mikrokristalik artritlər

**PFR-24. TƏXİRƏSALINMAZ REVMATOLOGİYA**

*Peşə bilikləri:*

PFR-24.1. Kəskin revmatoloji sindromlu xəstələrin müalicəsi;

PFR-24.2. İntensiv terapiya blokuna köçürülən kəskin hallarda, həyat üçün təhlükəli revmatoloji simptomatikalı və digər revmatoloji problemi olan xəstələrin vəziyyətinin qiymətləndirilməsi;

PFR-24.3. Komatoz vəziyyətlər, klinik variantları.

PFR-24.4. Psevdokomatoz halların diferensiasiyası

PFR-24.5. Revmatoloji xəstəliklərinin diferensial diaqnostikası və müalicəsi

*Peşə bacarıqları:*

PFR-24.6. Tənəffüs yollarının keçiriciliyinin bərpa edilməsi

PFR-24.7. Lümbal punksiyanın edilməsi və likvorun müayinəsi;

PFR-24.8. Peysmekerlərin olmasını təyin etmək;

## PFR-25. PEDİATRİK REVMATOLOGİYA

*Peşə bilikləri:* Yuvenil .revmatoid artriti, yuvenil xroniki artrit, yeni doğulmuşların qırmızı qurd

eşənəyi, yuvenil dermatomiozit, yuvenil sklerodermiya.

## PFR-26. DIAQNOSTİK RADİOLOGİYA

*Peşə biliklər*

PFR-26.1. Görüntüləmə üsullarının biofizikasını və zərərlərini bilmək;

PFR-26.2. Sinir sistemi patologiyasının KT, MRT müayinə üsullarının ümümi prinsipləri;

PFR-26.3. KT, MRTmüayinə üsularının aparılması üçün dəqiq göstəriş və əks- göstərişləri;

PFR-26.4. Nevrologiyada nüvə metodlarının klinik istifadəsi və məhdudiyyətləri;

PFR-26.5. Radiasion fizika və radiasion təhlükəsizlik prinsiplərinə yiyələnmək;

PFR-26.6. Nevrolojı xəstəliklərdə diaqnostik və terapevtik radiologiyanın məntiqli, faydalı və ekonomik istifadəsini bilmək;

PFR-26.7. Görüntüləmə üsullarının tətbiqinə göstərişləri, əks-göstərişləri və əlavə təsirlərini bilmək;

*Peşə bacarıqlar*

PFR-26.8. Nevroloji xəstəlıklərin aparılmasında radiologiyanın düzgün istifadəsini bacarmaq;

PFR-26.9. Cətin cərrahi vəziyyətlərdə radioloqlarla koordinasiyanı bacarmaq;

PFR-26.10. Transkutan və əməliyyatdaxili ultrasəs müayinəsini bacarmaq;

PFR-26.11. Radiasion müayinələrin interpretasiyası (normal şəkili və patologiya);

PFR-26.12. US müayinəsi ilə bütün can organları və damarları baxmağa bacarmaq;

PFR-26.13. USM və KT altında biopsiya, punksiya və drenajları bacarmaq;

## PFR-27. ELEKTROENSEFALOQRAFİYA (EEQ)

*Peşə biliklərı:*

PFR-27.1. EEQ çəkilişinə olan göstəriş və əks-göstərişlər;

PFR-27.2. EEQ-in interpretasiyası (norma və patologiya zamanı);

PFR-27.3. EEQ müayinə məlumatlarının qiymətləndirməsi və onlara görə yekun qərarın çıxarılması;

*Peşə bacarıqları:*

PFR-27.4. EEQ-monitorinq, Video-EEQ-in aparılması və interpretasiyası;

PFR-27.5. Funksional sınaqlar zamanı EEQ-nin aparılması;

## PFR-28. ELEKTROMİOQRAFİYA (EMQ)VƏ SAİR MÜAYİMƏ METODLARI

*Peşə biliklərı:*

PFR-28.1. EMQ çəkilişinə olan göstəriş və əks-göstərişlər;

PFR-28.2. EMQ-in interpretasiyası (norma və patologiya zamanı);
PFR-28.3. EMQ müayinə məlumatlarının qiymətləndirməsi və onlara görə yekun qərarın çıxarılması;

## 4. TƏHSİLİN MƏZMUNUNA VƏ SƏVİYYƏSİNƏ QOYULAN MİNİMUM TƏLƏBLƏR

### 4.1. Peşə fəaliyyətinin xarakteristikası

Həkim -revmatoloqun dərin fundamental və kliniki peşə hazırlığı tələb edən müasir profilaktika, diaqnostika, müalicə və reabilitasiya üsullarından istifadə etməklə əhaliyə ixtisaslaşmış revmatoloji yardımın göstərilməsinə hazır olmalıdır.

**4.1.1.** Həkim revmatoloqun peşə fəaliyyətinin əsas istiqamətləri:

- praktiki tibbi;
- elmi-tədqiqat;
- təşkilati-inzibatçılıq;
- elmi-pedaqoji sahə üzrə.

**4.1.2.** Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər:

**4.1.2.1.** praktik tibb sahəsi üzrə: (ÜFR-01. və PFR-01 — PFR-19. bəndlər aiddir)

**4.1.2.2.** elmi-tədqiqat sahəsi üzrə:

- revmatoloji xəstəliklərin inkişafında tibbi-sosial amillərin rolunu qiymətləndirmə üsullarını bilməlidir;
- elmi-tədqiqat işlərini planlaşdırmalıdır;
- tədqiqat mövzusunun seçilməsini bacarmalıdır;
- elmi-tədqiqat işini aparılmalıdır;
- elmi-tədqiqat işinin nəticələrinin təhlil etməlidir;
- alınmış nəticələrin praktik əhəmiyyətini və onun tətbiqi imkanlarını müəyyənləşdirməli, nəşr materiallarının hazırlanmasında iştirak etməlidir.

**4.1.2.3.** təşkilati-inzibatçılıq sahəsi üzrə:

- səhiyyə sistemində qəbul edilmiş normativ sənədlərdən (Azərbaycan Respublikasının qanunlarını, texniki reqlamentləri, beynəlxalq və milli standartları, əmrləri, tövsiyələri, beynəlxalq vahidlər sistemini, fəaliyyətdə olan beynəlxalq təsnifatları) istifadə etməyi, həmçinin tibbi müəssisələrin işinin keyfiyyətini və effektivliyini qiymətləndirmək üçün aparılmış sənədləşmələrdən istifadə etməyi bacarmalıdır.
- revmatologiya sahəsinin təşkilati quruluşunu, tibbi yardım göstərən müxtəlif tibbi müəssisələrin idarəçilik fəaliyyətini bilməli, müəssisələrin struktur bölmələrinin (ixtisas profilinə görə) iş göstəricilərini təhlil etməli, xəstələrə (revmatoloji ixtisası profilinə görə) tibbi xidmətin göstərilməsində müasir tibbi-

təşkilati və sosial-iqtisadi texnologiyaların səmərəsini qiymətləndirməyi bacarmalıdır.

- peşə səriştəsinin formalaşması üçün professional biliklər, bacarıqlar, vərdişlər sisteminə yiyələnməlidir.

**4.1.2.4.** elmi-pedaqoji sahə üzrə:

- orta tibbi ixtisas təhsil müəssisələrində və baza ali tibbi təhsilin səviyyəsində ixtisasa uyğun olaraq tədris edə bilər (mühazirə oxumağı, seminar aparmağı, laboratoriya işləri və s.)

## IV BÖLMƏ. Tədris-metodik və informasiya təminatı

### Əsas ədəbiyyat


1.EULAR, Textbook on Rheumatic Diseases, 2018

2. S.K.Musayev, S.K. Solovyev, E.A.Aseyeva, T.V.Popkova, T.A.Panafidina "Sistem qırmızı qurd eşənəyi", Həkimlər üçün metodik vəsait, Bakı-2020

3. Ревматология. Клинические рекомендации/ Под ред. Е.Л.Насонова- М:ГЭОТАР Медиа, 2010.

4.Clegg D.O., Reda D.J.Mejias E. et al Comparison of sulfasalazine and placebo in treatment of psoriatic arthritis: a Department Veterans Affrairs Cooperative Study/Arth.Rheum.-1996, Vol.39

5. Felson D.T., Andersen J.J., Boers M et al American College of Rheumatology preliminary definition of improvement in rheumatoid arthritis/ Arth.Rheum-1995. Vol.38

6. Sharp J.T., Lidsky M.D., Collins L.C. et al Method of scoring the progression of radiologic changes in rheumatoid arthritis/ Arth.Rheum-1971. Vol.14

7.Larsen A., Dale K.Standatrdized radiological evaluation of rheumatoid arthritis in therapeutic yrials/ D.C.Dumonde, J.K.Jasan (Eds). Recognising of anti-rheumatic drags.- lancaster: MTP Press


## V.QİYMƏTLƏNDİRMƏ MEYARLARI

### Metodik göstərişlər

**Doktorantların 060924- "Revmatologiya"** ixtisas fənni üzrə ali ixtisaslı kadrların hazırlanması üçün fəlsəfə doktoru imtahanı proqramı üzrə attestasiyası şifahi imtahan şəklində aparılır. Doktorantın fəlsəfə doktoru imtahanına hazırlığı "Revmatologiya" ixtisasi üzrə mühazirələr və praktiki məşğələlər dövründə, həmçinin auditoriyadankənar saatlarda müstəqil iş çərçivəsində həyata keçirilir.

**Qiymətləndirmə meyarları.** İmtahan zamanı doktorant proqrama daxil edilmiş suallara ətraflı cavab verməlidir. İmtahan zamanı komissiya əlavə suallar da verə bilər. Cavab zamanı doktorant sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:

- ümumi nozologiya haqqında məlumat: səbəb və şərait amillərinin, həmçinin orqanizmin reaktivliyinin xəstəliklərin əmələ gəlməsində, inkişafında və

nəticəsində rolu; tipik patoloji proseslərin səbəbləri və inkişaf mexanizmləri, əlamətləri və müxtəlif xəstəliklərin inkişafı zamanı orqanizm üçün əhəmiyyəti; orqan və sistemlərin tipik pozulmalarının səbəbləri, inkişaf mexanizmi və əsas əlamətləri; patoloji proseslərin öyrənilməsində eksperimental metodun (heyvanlarda xəstəliklərin və patoloji proseslərin modelləşdirilməsi) əhəmiyyəti; onun imkanları, məhdudiyyətləri və perspektivləri.

- klinik-laborator, eksperimental və digər müayinələrin patofizioloji təhlilini aparmaq; heyvanlarda eksperimental tədqiqatları planlaşdırmaq və aparmaq (müvafiq qaydalara riayət etməklə), təcrübənin nəticələrini işləmək və təhlil etmək, patologiyanın klinik formalarını öyrənmək üçün eksperimental metodun əhəmiyyətini düzgün qiymətləndirməyi bacarmaq;

- müxtəlif ədəbiyyat mənbələri ilə işləmək, müvafiq problemlər üzrə informasiya axatarışı aparmaq; tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yaranan metodoloji problemləri təhlil etmək; müasir elmi nailiyyətləri, o cümlədən fənlərarası sahələrdə tədqiqat və praktiki xarakterli məsələlərin həlli üzrə fəaliyyətin nəticələrini təhlil etmək və qiymətləndirmək.

Cavabın tamlığı təhsilin planlaşdırılan nəticələrinin qiymətləndirilməsi göstəricilərinə əsasən təyin edilir.

Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanını qəbul edən imtahan komissiyasının üzvləri (qapalı iclasda açıq səsvermə yolu ilə) **aşağıdakı meyarları rəhbər tutaraq** imtahan verən şəxsin hər bir suala cavabını biliklərin qiymətləndirilməsi üçün beş ballıq sistem əsasında **5 (“əla”), 4 (“yaxşı”), 3 (“kafi”) və ya 2 (“qeyri-kafi”)** kimi qiymətləndirirlər. Mübahisəli vəziyyət yaranan halda imtahan komissiyasının Sədri həlledici səsə malikdir.

| **Ballar** | **Qiymətləndirmənin meyarları** |
|---|---|
| **1** | **2** |
| **5 (əla)** | Doktorant revmatologiya ixtisasını dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu tam açıqlayır. Doktorant revmatologiya ixtisası üzrə yerli və xarici tədqiqatçıların işləri, ümumi nozologiya, tipik patoloji proseslər, orqan və toxumaların patofiziologiyası haqqında dərin biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla hərtərəfli tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat mlumatları əsasında təhlilini qiymətləndirə bilir. |
| **4 (yaxşı)** | Doktorant revmatologiya ixtisasını fənnini dərindən mənimsədiyini |

| | |
|---|---|
| | nümayiş etdirərək sualın məzmununu açıqlayır. Doktorant revmatologiya ixtisası üzrə yerli və xarici tədqiqatçıların işləri, ümumi nozologiya, tipik patoloji proseslər, orqan və toxumaların patofiziologiyası haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla kifayət qədər tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirə bilir. |
| **3 (kafi)** | Doktorant revmatologiya fənnini qismən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu əsasən açıqlayır. Doktorant revmatologiya ixtisası üzrə yerli və xarici tədqiqatçıların məlumatları, ümumi nozologiya, tipik patoloji proseslər, orqan və toxumaların patofiziologiyası haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla yarımçıq tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant nəzəriyyəni, elmi tədqiqatların ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirməkdə çətinlik çəkir. |
| **2 (qeyri-kafi)** | Doktorant sualın məzmununu kifayət qədər açıqlamır və revmatologiya ixtisasını mənimsədiyini nümayiş etdirə bilmir. Doktorant revmatologiya ixtisası üzrə yerli və xarici məlumatlar, ümumi nozologiya, tipik patoloji proseslər, orqan və toxumaların patofiziologiyası haqqında minimum biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla minimum tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirə bilmir. |